

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 143 (23.555)

*29 avqust 2020-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə yeni texnikalar təqdim olunub

Muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin olunması sahəsində görülən işlər sırasında meliorasiya və irriqasiya sistemlərinin müasirləşdirilməsi xüsusi yer tutur. Torpaq və su ehtiyatlarından səmərəli istifadə, yeni hidrotexniki qurğuların və mütərəqqi suvarma şəbəkələrinin qurulması əkinçilik üçün geniş imkanlar açmışdır. Muxtar respublikada hər il meliorativ tədbirlərin miqyası genişləndirilir, yüz hektarlarla torpaq sahəsi əkin dövriyyəsinə qatılır, maddi-texniki baza gücləndirilir.

Avqustun 28-də Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə 17 adda 67 müxtəlif təyinatlı yeni maşın, texnika və avadanlıq təqdim olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.







Ali Məclisin Sədri yeni texnika və avadanlıqların təqdimatı münasibətilə kollektivi təbrik edərək demişdir: Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında imzalanmış Texniki-İqtisadi Əməkdaşlıq haqqında Sazişə əsasən Çin Xalq Respublikasından gətirilmiş 17 adda 67 texnika və texnoloji avadanlıq bu gün Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə verilir. Ölkələrimiz arasındakı qarşılıqlı əməkdaşlıq və dostluq, ölkə Prezidentlərinin səmimi münasibətləri, həyata keçirilən səfərlər Azərbaycan-Çin əlaqələrini yüksək səviyyəyə qaldırmışdır. Bunun nəticəsi olaraq Çin Xalq Respublikası tərəfindən 2017-ci ildə "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətinə kənd təsərrüfatı texnika və avadanlıqları verilmişdir. Bu gün isə Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə 67 maşın, texnika və avadanlıq təqdim olunur. Eyni zamanda Dövlət Energetika Xidməti üçün də yeni avadanlıqlar gətirilmişdir.

Ali Məclisin Sədri demişdir: Təqdim olunan avadanlıqlar muxtar respublikada kənd təsərrüfatının inkişafı üçün geniş imkanlar açacaqdır. Çünki "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətinə verilmiş avadanlıqlarla həm 2 min hektarlıq toxumçuluq təsərrüfatında işlər həyata keçirilir, həm də digər təsərrüfatlara köməklik göstərilir. Bu gün təqdim olunan avadanlıqlar isə muxtar respublikada meliorasiya və irriqasiya sahəsində istifadə olunacaqdır. Hazırda muxtar respublikada 62 min hektara yaxın ərazidə əkin aparılır. Son 20 il ərzində əkin sahələri 22 min hektara yaxın artırılmışdır. Qarşıda duran əsas vəzifə torpaqların su təminatını yaxşılaşdırmaq, aqrotexniki qaydada əkinlər aparmaq və mütərəqqi suvarma şəbəkələri



qurmaqdır. Qrant layihəsi üzrə gətirilən müasir texnikalar kənd təsərrüfatında meliorasiya tədbirlərinin tam və keyfiyyətlə həyata keçirilməsinə imkan verəcəkdir. Ona görə də gətirilən texnikalardan səmərəli istifadə olunmalı, onların istismar qaydaları düzgün öyrənilməli və vaxtında texniki baxış keçirilməlidir.

"Yeni texnika təqdimatı keyfiyyətli və bol məhsul istehsalında əsas amildir", – deyən Ali Məclisin Sədri bildirmişdir ki, suvarma işləri və aqrotexniki tədbirlər də vaxtında həyata keçirilərsə, torpaqlardan bol məhsul götürülər. Bu gün muxtar respublikada yeni qapalı suvarma şəbəkələri qurulur. Yeni texnika və avadanlıqlardan həmin işlərin həyata keçirilməsində də istifadə olunacaqdır. Bütün bunlar isə kənd təsərrüfatının inkişafına mühüm töhfədir.

Ali Məclisin Sədri kollektivi bir daha təbrik etmiş və gətirilən texnikaların səmərəli istifadə olunacağına əminliyini bildirmişdir.

Melioratorlardan Əfqan Musayev minnətdarlıq edərək demişdir: "Yaradılan şərait qarşımızda yeni vəzifələr qoyur, məsuliyyətimiz artır. Çalışacağıq ki, bundan sonra da göstərilən qayğıya cavab olaraq işimizi daha da keyfiyyətlə quraq, kənd təsərrüfatının inkişafına öz töhfəmizi verək".

Sonra yeni texnikalara baxış olmuşdur.

Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Yəhya Allahverdiyev yeni texnika və texnoloji avadanlıqlarla bağlı məlumat vermişdir. Bildirilmişdir ki, Çin istehsalı olan 5 ekskavator, 8 buldozer, 13 dəst qaynaq aparatı, 8 çalovlu yükləyici, qoşqulu və texniki yardım avtomobilləri, 3 yeraltı su və 8 susızma detektoru, 2 hava kompressoru, 6 su sərfiyyatını ölçən cihaz, 1 mobil yükləyici və digər avadanlıqlar yüksək iş əmsalına malikdir. Texniki yardım avtomobili generator, hava kompressoru, qaynaq və plazma kəsici aparatlarla təchiz olunmuşdur. Yeni texnika və texnoloji avadanlıqlar arx və kanalların qazılması, təmizlənməsi, ərazilərin hamarlanması, maşın-texnika və avtonəqliyyat vasitələrinə yerində texniki xidmət göstərilməsi, yeraltı suların və boru xətlərində su sızmalarının təyin olunması, su sərfiyyatının ölçülməsi kimi işlərin həyata keçirilməsində istifadə olunacaqdır.

Yeni texnikalar üçün Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin həyətində ümumi sahəsi 2740 kvadratmetr olan 31 yerlik yarımqapalı dayanacaq tikilmiş, ehtiyat hissələri anbarı yaradılmışdır.

Texnikalara baxışdan sonra kollektivlə görüşən Ali Məclisin Sədri demişdir: Müasir texnikalar işin keyfiyyətini xeyli artıracaqdır. Çünki texnika işin yarısı deməkdir. Muxtar respublikada bundan sonra da əhali artımına uyğun olaraq əkin dövriyyəsinə yeni torpaqlar qatılmalı, eyni zamanda ixrac imkanları genişləndirilməlidir. Torpaqların əkin dövriyyəsinə qatılmasında isə texnika və texnoloji avadanlıqların rolu böyükdür. Yeni texnikalar iş şəraitinin yaxşılaşdırılması ilə yanaşı, həm də məhsul bolluğunun yaradılmasına xidmət edəcəkdir.

Ali Məclisin Sədri yeni texnikalardan səmərəli istifadə ilə bağlı müvafiq tapşırıq və tövsiyələr vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Quruculuq ünvanlarında işlər davam etdirilir

Qəbul olunmuş Dövlət proqramlarının uğurlu icrası, aparılan quruculuq işlərinin həcminin ilbəil genişlənməsi Babək rayonunun şəhər, qəsəbə və kəndlərinə yeni ab-hava gətirib. Hər il rayonda geniş abadlıq-quruculuq işləri aparılır, infrastruktur yenilənir.

Bu ilin mart ayından etibarən Qahab inzibati ərazi dairəsi üzrə nümayəndəlikdə birləşən Nəcəfəlidizə kəndində kompleks quruculuq işlərinə başlanılıb. Müasir layihə əsasında quruluan məktəb binası üç mərtəbədən ibarətdir.



Tədris ocağının yeni dərs ilində istifadəyə verilməsi planlaşdırılır. Bundan başqa, kənd və xidmət mərkəzləri də inşa olunub, daxili yollar abadlaşdırılıb, körpü yenidən qurulub.

Bu ilin iyun ayında şəhər statusu alan Babək şəhərində isə müasir bazar kompleksi inşa olunur. Bazarda qadın və kişi dərzisi, bərbər, baytarlıq apteki, təsərrüfat malları mağazası və yeməkxana yaradılacaq. Bundan başqa, kənd təsərrüfatı məhsulları yarmarkasının təşkili üçün həyətdə açıq bazar da inşa edilir.

Yaradılan xidmət sahələri imkan verəcək ki, 12 mindən artıq əhalinin yaşadığı Babək şəhərində sakinlər Naxçıvan şəhərinə getmədən gündəlik ərzaq təminatını ödəyə bilsinlər. Xatırladaq ki, şəhərdə əhaliyə müasir nəqliyyat xidməti də təşkil edilib. Belə ki, ötən aylardan etibarən 6 nömrəli marşrut xətti Babək şəhəri istiqamətində fəaliyyət göstərir.

**Muxtar RZAZADƏ**





# Türkiyə Cümhuriyyətinin zəfər tarixi

Hər il avqust ayının 30-u Türkiyə Respublikasının Zəfər Bayramı və Türkiyə Silahlı Qüvvələri Günü kimi qeyd olunur.

Türk xalqı 1919-cu ildə öz dövlətçiliyini qoruyub saxlamaq və Vətəni işğaldan azad etmək uğrunda mübarizəyə başladı. 1920-ci ilin 23 aprelində Anadoluda Türkiyə Böyük Millət Məclisi təsis edildi, xalqın iradəsinə əsaslanan, xalqı təmsil edən hökumət quruldu, bütün cəbhələrdə düşmənlərə qarşı uğurlu hərbi əməliyyatlar başlandı. İlk qələbələr Şərq cəbhəsində erməni quldur dəstələri üzərində qazanıldı. 1921-ci ilin avqust-sentyabr aylarında Sakarya müharibəsində yunan qoşunlarının məğlub olması ilə türk ordusu müdafiə mövqeyindən hücum mövqeyinə keçdi. Görkəmli dövlət xadimi, bacarıqlı təşkilatçı, istedadlı hərbçi Mustafa Kamal Atatürkün rəhbərliyi altında qurtuluş savaşı aparan türk ordusu düşmənə sarsıdıcı zərbə vuraraq 1922-ci il avqustun 30-da böyük zəfər qazandı. Həmin gün Türkiyə tarixinə Zəfər bayramı kimi daxil oldu. Qurtuluş savaşında Azərbaycan xalqı da qardaş Türkiyə xalqına dəstək oldu, döyüşlərdə iştirak edərək şəhidlər verdi.

Böyük tarixi kökə malik olan Azərbaycan-Türkiyə əlaqələrinin əsasında möhkəm dostluq, qardaşlıq və etibarlı strateji tərəfdaşlıq münasibətləri dayanır. Hər iki dövlətin qurucularının – ümummilli lider Heydər Əliyevin və Mustafa Kamal Atatürkün çox güclü siyasi iradəsi məxsus olduqları xalqı və dövləti yaşatmış, bu gün də yaşadır. Qardaş Türk xalqının öndəri Mustafa Kamal Atatürkün ***"Azərbaycanın kədəri bizim kədərimiz, sevinci bizim sevincimizdir"*** və ümummilli liderimiz Heydər Əliyevin ***"Azərbaycan-Türkiyə bir millət iki dövlətdir"*** kəlamları Azərbaycan-Türkiyə münasibətlərini xarakterizə edən mükəmməl konsepsiyadır. Bu konsepsiya hər iki dövlətin rəsmi mövqeyinin əsasında dayanır, qarşılıqlı əlaqələrin qədim tarixi köklərini, eləcə də siyasi, iqtisadi və mədəni əməkdaşlığın təməl prinsiplərini müəyyənləşdirir. Qarşılıqlı dostluq və inam xalqlarımızın rifahına, ölkələrimizin gələcək inkişafına xidmət edir. Azərbaycanla Türkiyənin birgə həyata keçirdiyi iqtisadi layihələr hər iki dövlətin dünyada nüfuzunu getdikcə artırmaqdadır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"Dostluq və qardaşlıq üzərində qurulmuş Azərbaycan-Türkiyə əlaqələrinin bu gün dünyada bənzəri yoxdur. Bu əlaqələr tarixən qırılmaz tellərlə bir-birinə bağlı olan xalqlarımızın iradəsindən qaynaqlanır. Əminəm ki, Türkiyə-Azərbaycan həmrəyliyi və strateji müttəfiqliyi birgə səylərimizlə bundan sonra da xalqlarımızın mənafelərinə uyğun olaraq daha da möhkəmlənəcək və genişlənəcəkdir".***

Ölkələrimiz və xalqlarımız arasındakı strateji tərəfdaşlığa Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyənin yaxın bölgələri arasındakı uğurlu əməkdaşlıq da öz töhfəsini verməkdədir. Bu əlaqələrin əsası ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışdığı dövrdə qoyulmuşdur. Ulu öndərin Ali Məclisin Sədri kimi 1992-ci il martın 24-də Türkiyəyə ilk rəsmi səfəri zamanı "Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq protokolu" imzalanmış, Naxçıvanla Türkiyə Cümhuriyyəti arasında gediş-gəlişi təmin etmək məqsədilə Sədərək-Dilucu körpüsünün tikintisinə başlanılmışdır. Həmin il mayın 28-də Sədərək-Dilucu körpüsü istifadəyə verilmişdir. Hazırda Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasındakı əlaqələr bir çox istiqamətlər üzrə uğurla inkişaf etdirilir. Xüsusilə ordu quruculuğu, iqtisadi-ticarət, nəqliyyat, təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə əlaqələrin inkişafı məmnunluq doğurur. Bu gün muxtar respublikanın sürətli sosial-iqtisadi inkişaf dinamikası, ixrac potensialı, eləcə də qarşılıqlı faydalı əməkdaşlıq imkanları türk iş adamlarının bölgəyə marağını artırır, Türkiyə ilə qarşılıqlı əlaqələr durmadan inkişaf edir.

Bu il fevralın 25-də Bakıda hər iki ölkə liderinin rəhbərliyi ilə keçirilən Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VIII iclası təkcə Azərbaycan və Türkiyə üçün deyil, ümumiyyətlə, regionun gələcək inkişafı baxımından əhəmiyyətli idi. İclasda Türkiyənin Qars şəhəri ilə Naxçıvan arasında dəmiryol nəqliyyat xəttinin və İğdır-Naxçıvan qaz kəmərinin çəkilməsi barədə imzalanan sənədlər, bir sıra mühüm iqtisadi və siyasi tərəfləri ilə yanaşı, Naxçıvanın geosiyasi əhəmiyyətini daha da artırmaq baxımından da mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasında ordu quruculuğu sahəsindəki əməkdaşlıq ilbəil genişləndirilir. Ənənə halını almış birgə hərbi təlimlər uğurlu əməkdaşlığın nəticəsidir. Ötən il Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki təlimlərində iştirak etmək üçün Naxçıvan Muxtar Respublikasına səfərə gəlmişdir. Səfər zamanı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Türkiyə Milli Müdafiə naziri ilə görüşmüşdür. Müvafiq plana uyğun olaraq keçirilən builki təlimlər isə miqyasına görə əvvəlkilərdən xeyli fərqlənir.

Strateji tərəfdaşlığa əsaslanan Azərbaycan-Türkiyə dövlətlərarası münasibətləri getdikcə daha da inkişaf edəcək, möhkəmlənəcək, ölkələrimiz daha böyük zəfərlər qazanacaqlar. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Bu gün Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətləri regionda əmin-amanlığın və sabitliyin qorunmasına mühüm töhfədir. Qarşılıqlı faydalı əməkdaşlıq, həyata keçirilən birgə layihələr strateji tərəfdaşlığımızı daha da möhkəmləndirir".***

**"Şərq qapısı"**





# İki qüdrətli dövlətə malik bir qəhrəman millətin övladları

***Azərbaycan və Türkiyə mədəni əlaqələrinin tarixi və milli-mənəvi kökləri bir-birilə qırılmaz tellərlə bağlıdır. Etnik, tarixi, milli-mənəvi və ictimai-siyasi təməllərə söykənən bu qardaşlıq bağları çox qədim və zəngin ənənələr üzərində qurulub. Tarixboyu bir çox taleyüklü məsələlərin həllində də bu xalqlar çətin, ağır vəziyyətlərdə bir-birinə yardım edib, arxa-dayaq olublar.***

Birinci Dünya müharibəsi zamanı yüzlərlə azərbaycanlı könüllü olaraq Türkiyəyə yollandı, Osmanlı ordusunda düşmənə qarşı mübarizə apardılar. Çanaqqala zəfərinin qazanılmasında onlarla azərbaycanlının da payı vardır. 1919-cu ildə qardaş ölkədə milli mücadilə hərəkatının genişləndiyi xəbərini alan Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərliyi dərhal türk xalqına dəstək planını həyata keçirib. Cümhuriyyətin Baş naziri Nəsib bəy Yusifbəyli 1,5 milyon fransız frankı məbləğində pul yardımı çekini və neft qəbzlərini Türkiyəyə göndərib. Bundan başqa, Anadoluda milli mücadilənin başlandığını eşidən analarımız-bacılarımız qulaqlarındakı sırğaları, barmaqlarındakı üzükləri çıxararaq Türkiyəyə göndəriblər. Kazım Qarabəkir Paşa "İstiqlal hərbimiz" adlı əsərində yazır ki, Nəsib bəy Yusifbəyli Anadoluya vurduğu teleqramda Rauf bəy Orbayın Türkiyədən Azərbaycana gəlməsini və nə qədər tələb olunursa, silah verməyə hazır olduqlarını bildirmişdi. Bütün bunlar azərbaycanlıların dostluqda, qardaşlıqda sədaqətliliyinin və qardaş Türkiyəyə böyük sevgisinin təzahürü idi.

Azərbaycan xalqı tarixin müxtəlif dönəmlərində eyni sevgini, dəstəyi qardaş Türkiyə xalqından görüb. Ənvər Paşa, Nuru Paşa, Kazım Qarabəkir Paşa və Azərbaycanı öz Vətəni kimi sevən neçə-neçə türk sərkərdənin adını müstəqillik qazandıqdan sonra eşitdik çoxumuz. Onlar 1918-1920-ci illərdə erməni daşnaklarının ölkəmizin müxtəlif bölgələrində, o cümlədən Naxçıvanda törətdikləri qırğınlara biganə qalmayıb, müdafiə qüvvələrimizin köməyinə gəliblər. "İnsan ancaq öz doğma yurdu, Vətəni üçün canından keçər", – deyirlər. Həmin illər onlarla türkiyəli qardaşımız da Azərbaycan, Naxçıvan naminə öz canlarını fəda edib. Vətənimizi quldurlardan müdafiə edən igidlərimizə döyüş yoldaşı olub, onlarla birlikdə şəhidlik zirvəsinə ucalıb.

"İgid şəhid olduğu yerdə dəfn edilər", – deyərlər. Neçə-neçə türk övladı da qədim yurdumuzda şəhadət zirvəsinə ucalıb, burada dəfn olunub. Onların əziz xatirəsini yetmiş illik sovetlər dönəmində xalqımızın yaddaşından silməyə çalışsalar da, zaman öz sözünü dedi. Müstəqillik qazandıqdan sonra dahi rəhbər, ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə türk şəhidlərinin adları bir daha xatırlandı, onların şərəfinə abidələr ucaldıldı.

Bu gün Naxçıvan şəhərində ucalan Türk şəhidləri abidəsi, Sədərək rayonunda Şəhidlər xiyabanının yaxınlığında yerləşən Əli Çavuşun məzarı üzərində ucalan abidə qəhrəmanlıq nümunəsi, qardaşlıq simvoludur. Əli Çavuş 1918-ci ildə Naxçıvana gələn türk ordusunun sırasında daşnak Andranikə qarşı mübarizə apararaq şəhadətə ucalıb. Son nəfəsində belə vəsiyyət edib: "Məni elə yerdə dəfn edin ki, oradan Ağrı dağı görünsün. Əsən küləklər yurdumun torpağının ətrini mənə gətirsin. Hər Günəş doğanda və batanda Ağrının gözəlliyini duya bilim..." Belə ehtimal olunur ki, Əli Çavuşun Sədərək kəndində dəfn edilmə istəyinin səbəbi isə bu yerlərin onun doğulduğu Sinopa bənzəməsidir.

Yüz ildən artıq bir vaxtdır ki, qədim Sədərək bir türk şəhidini öz övladı kimi qoynuna alıb. Əvvəllər o, tək idi və bu təklik düz 70 il davam etdi. Onu unutdurmağa çalışsalar da, xalq onun məzarını öz əziz övladının uyuduğu müqəddəs yer kimi qoruyub saxladı. 1990-cı ilin həmin dəhşətli və qürurlu günlərində Əli Çavuşun məzarının yanına yeni-yeni ziyarətgahlar salındı. Sədərəyin müdafiəsində igidliklə döyüşənlər də şəhidlik məqamına yüksəldilər. Bu gün Sədərək rayonundakı Şəhidlər xiyabanında qardaş şəhidlər yan-yana uyuyurlar. Oraya gedən bütün ziyarətçilər Əli Çavuşu da ehtiramla yad etməyi unutmur. Axı necə unuda bilərik dar gündə köməyimizə gələn, Vətənimiz uğrunda canından keçən türk oğlunu?..

Bu gün də Azərbaycan ilə Türkiyəni tarixin sınaqlarından mətanətlə çıxmış qardaşlıq, dostluq bağları sıx birləşdirir. Türk dünyasının böyük oğlu Mustafa Kamal Atatürkün ***"Azərbaycanın kədəri bizim kədərimiz, sevinci bizim sevincimizdir"*** və ulu öndərimiz Heydər Əliyevin ***"Biz bir millət, iki dövlətik"*** müdrik kəlamları yolumuza nur saçır. Qədim yurdumuzun azad səmasında qanad çalan türk və azərbaycanlı şahinlərin göylərdə dalğalandırdıqları ay-ulduzlu bayraqlarımız bizə qürur yaşadır, qardaş şəhidlərin ruhunu şad edir və əminik ki birgə böyük zəfərlərə imza atmaqla bu müqəddəs ruhları daha da sevindirəcəyik.

**✍ Ramiyyə ƏKBƏROVA**

## Səhiyyə Nazirliyində payız-qış mövsümünə hazırlıq məsələləri müzakirə olunub

***Dünən Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində 2020-2021-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə bağlı kollegiya iclası keçirilib.***

Səhiyyə naziri Niyazi Novruzov iclasda məruzə edərək bildirib ki, bu gün muxtar respublikada ən son yenilikləri özündə əks etdirən avadanlıqlarla təchiz olunmuş tibb ocaqlarının istifadəyə verilməsi davam etdirilir. Təkcə son 6 ay ərzində Culfa Rayon Mərkəzi Xəstəxanası yenidənqurma və təmirdən sonra ehtiyac olan bütün növ tibbi avadanlıq və cihazlarla təchiz edilib. Ordubad rayonunun Vənənd Kənd Həkim Ambulatoriyası, Şərur rayonunun Məmmədsabir Kənd Həkim Ambulatoriyası və Muğancıq-Mehrab feldşer-mama məntəqəsi yeni tikilərək, bütün növ tibbi avadanlıq və inventarlarla təchiz edilərək istifadəyə verilib. Yeni səhiyyə müəssisələri istilik sistemi ilə təchiz edilir, payız-qış mövsümünə hazır vəziyyətə gətirilir. Bu səbəbdən də son illər qış mövsümü üçün ehtiyac olan yanacaq və mal-materiala tələbat keçən illərə nisbətən xeyli azalıb. 2020-2021-ci illərin qış mövsümündə 78 tibb müəssisəsi fərdi, 131 müəssisə mərkəzi istilik sistemi ilə, 13 müəssisə neft sobası, 1 müəssisə təbii qazla qızdırılacaq. Keçən illərdə olduğu kimi, bu il də qışa hazırlıq məqsədilə



bütün elektrik xətləri, transformator, generatorlar, istilik və su xətləri müvafiq qurumlar və müəssisələrin özləri tərəfindən yoxlanılır və çatışmazlıqlar aradan qaldırılır.

Payız-qış aylarında baş verə biləcək hər hansı hal üçün müəssisə rəhbərlərinin məsuliyyət daşıdığını vurğulayan Niyazi Novruzov bildirib ki, sertifikatı olmayan ocaqçılar qazanxana maşinisti kurslarına cəlb olunmalı, səhiyyə müəssisələrinə veriləcək yanacaq və mal-materialdan səmərəli istifadə təmin edilməli, bütün tibb müəssisələrində ocaqçı və gözətçilərin peşə hazırlıqları bir daha yoxlanılmalı, dövlət mülkiyyətinin qorunmasına şüurlu münasibət formalaşdırılmalıdır. Payız-qış mövsümü ilə əlaqədar nəzarət komissiyaları yaradılmalı, müntəzəm reydlər aparılmalı, ocaqçı və gözətçilərin iş vaxtına, geyim formalarına və təhlükəsizlik qaydalarına əməl etmələri nəzarətdə saxlanmalıdır. Səhiyyə müəssisələrində elektrik enerjisi, su və təbii qazdan səmərəli istifadə ilə bağlı müvafiq izahat işləri aparılmalı, istilik sistemi ilə işləyən təhsil müəssisələrində istiliyin hava şəraitinə uyğun tənzimlənməsinə nəzarət edilməli, izafi xərclərə yol verilməməlidir.

Səhiyyə müəssisələrinin tələbata uyğun dərman preparatları və tibbi avadanlıqlarla təminatı davam etdirilməli, səhiyyə maarifinə diqqət artırılmalı, əhali mövsümi xəstəliklərlə bağlı məlumatlandırılmalı, gigiyena və epidemiologiya mərkəzləri tərəfindən qrafikə uyğun dezinfeksiya işlərinin aparılması təmin olunmalıdır.

Sonra çıxışlar olub.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*Təhsil millətin gələcəyidir*

# Bu günün gəncləri, sabahın tədqiqatçıları

***Naxçıvanda gənc nəslin hərtərəfli yetişməsi, gələcəyin istedadlı və peşəkar mütəxəssisi kimi formalaşması istiqamətində əhəmiyyətli tədbirlər həyata keçirilir. İstər orta məktəb, istərsə də ali təhsil müəssisələrində gənclərin müxtəlif layihələrə, təcrübi tədbirlərə cəlb edilməsi də bu baxımdan atılan mühüm addımlardır. Muxtar respublikamızın elm məbədi olan AMEA Naxçıvan Bölməsində də bu istiqamətdə əhəmiyyətli işlər görülür. Bölmənin Beynəlxalq əlaqələr və informasiya şöbəsinin mətbuat xidmətinin mütəxəssisi Türkanə Bəylərli ilə söhbətimiz də məhz bu yöndə oldu. Öyrəndik ki, bölmənin həyata keçirdiyi mühüm tədbirlər sırasında nümunəvi dərslər xüsusi əhəmiyyəti ilə seçilir.***

Məhz "Naxçıvan Muxtar Respublikasının elm, ali və orta ixtisas təhsili müəssisələri ilə ümumtəhsil məktəbləri arasında əlaqələrin təşkili haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2015-ci il 14 mart tarixli Sərəncamına əsasən təşkil olunan nümunəvi dərslər ölkəmizin intellektual gələcəyi naminə atılan məqsədyönlü addımdır. Sərəncama əsasən bölmənin, eləcə də ali və orta ixtisas təhsili müəssisələrinin professor və müəllim heyətinin iştirakı ilə muxtar respublikanın ümumtəhsil məktəblərində nümunəvi dərslər təşkil edilir. Elmi dərəcəsi olan müəllimlərlə orta təhsil müəssisələri arasındakı əlaqələrin gücləndirilməsi fənlərin tədrisində mütərəqqi metodların tətbiqinə şərait yaradır. Söhbət zamanı aydın oldu ki, ötən tədris illərində bölmənin elmi dərəcəli əməkdaşlarından 2 akademik, 4 müxbir üzv, 5 elmlər doktoru, 55 fəlsəfə doktorunun iştirakı ilə orta məktəblərdə ayda bir dəfə olmaqla, nümunəvi dərs keçilib.

Qeyd edək ki, gənc nəslin müasir bilik və bacarıqlara yiyələnməsində informasiya və kommunikasiya texnologiyalarının təhsildə tətbiqi mühüm amildir. Ali Məclis Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli Sərəncamı muxtar respublikada təhsil müəssisələrində virtual tədris mühitinin formalaşdırılmasına, tədrisin əyaniliyinin və səmərəliliyinin daha da artırılmasına təkan verib. Həyata keçirilən tədbirlərin davamı kimi, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən elektron təhsilin təşkili sahəsində yeni bir layihəyə start verilib. Həmsöhbətim bölmənin bu sahədə gördüyü işlərdən də danışdı. Dedi ki, ölkə təhsilində ilk dəfə olaraq 2016-cı ildə "İnteraktiv açıq dərs" layihəsi çərçivəsində bölmə ilə Naxçıvan Muxtar Res-



publikasının ümumtəhsil məktəbləri arasında "Azərbaycanda xanlıqların yaranması: Naxçıvan xanlığı", "XX əsrin əvvəllərində ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımları və Naxçıvan", "Azərbaycan Xalq Cümhuriyyətinin milli dövlətçilik tariximizdəki rolu", "Naxçıvan Muxtar Respublikası müstəqillik illərində (1995-2019-cu illər)", "Naxçıvanın tarixi abidələri", "Naxçıvan şəhəri İslam mədəniyyətinin paytaxtı kimi", "Kitabi-Dədə Qorqud" dastanları və Naxçıvan", "Naxçıvan Muxtar Respublikasının florasının nadir növləri və onların mühafizəsi" və digər mövzularda açıq dərslər keçilib. Əyaniliyin təmin olunması məqsədilə açıq dərslər məktəbdənkənar elmi və mədəni müəssisələrdə də təşkil edilib, bölmə əməkdaşlarının Heydər Əliyev Muzeyində, Dövlət Bayrağı Muzeyində və Naxçıvanşünaslıq Mərkəzində açıq dərsləri dinlənilib. Tarixi günlər və əlamətdar hadisələrlə əlaqədar təşkil edilən tədbirlərdə alimlər müvafiq mövzularla məktəblilər qarşısında çıxış ediblər.

Həmsöhbətim onu da qeyd etdi ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamının icrası ilə əlaqədar bölmənin Rəyasət Heyəti Ekspert qrupu yaradıb. Naxçıvan Dövlət Universitetinin Tarix, Fizika, Biologiya, Tərcümə (Ərəb-Azərbay-




can) və Tərcümə (Fars-Azərbaycan) ixtisasları üzrə təhsil alan tələbələri bölmənin müvafiq elmi-tədqiqat müəssisələrində hamiliyə götürülüb. Bölmə tərəfindən ötən tədris ilində tələbələrin iştirakı ilə müxtəlif mövzularda diskussiyalar təşkil edilib, praktik məşğələlər aparılıb, tədqiqatların metodologiyası öyrədilib, seminarlar, açıq dərslər, müasir cihazlarla təchiz olunmuş laboratoriyalarda məşğələlər keçirilib. Tələbələr bölmənin fəaliyyəti və burada elmi-tədqiqat institutlarının iş prinsipi ilə yaxından tanış olublar. Bununla yanaşı, tələbələrin iştirakı ilə "Tarixi abidələrimizi tanıyaq və tanıdaq", "Əlyazmalarda Naxçıvan", "Tədqiqatdan tətbiqə" layihələri çərçivəsində "Azərbaycan tarixşünaslığında arxeologiya elminin yeri", "Naxçıvanın Eneolit mədəniyyəti", "Naxçıvan abidələrində yaşayan qədim tariximiz", "Naxçıvan abidələrinin öyrənilməsi və qorunması sahəsində əldə edilən nailiyyətlər", "Naxçıvan Tunc dövründə", "Naxçıvan Muxtar Respublikasının xüsusi mühafizə olunan ərazilərinin nadir bitki və heyvanları" və digər mövzularda açıq dərslər, elmi-praktik seminarlar təşkil olunub. Eyni zamanda elmi-nəzəri biliklərin əyani şəkildə möhkəmləndirilməsi istiqamətində tələbələr bölmənin arxeoloji ekspedisiyasının işi ilə yaxından tanış edilib. Həmçinin bölmənin nəzdində fəaliyyət göstərən Arxeologiya və Etnoqrafiya Muzeyində gənclərə Naxçıvanın qədim və zəngin tarixini əks etdirən, 2006-2019-cu illərdə regionun müxtəlif ərazilərində aparılan arxeoloji qazıntılar nəticəsində əldə olunan maddi mədəniyyət nümunələri haqqında məlumat verilib. Muzeyin sərgi salonunda nümayiş etdirilən, Neolit dövründən başlayaraq son orta əsrlər dövrünədək xronoloji ardıcıllıqla sıralanan eksponatlar, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin muzeyə bağışladığı bu diyarın 90 illik yubileyi münasibətilə təsis olunmuş medallar haqqında verilən məlumatlar da gənclərin diqqətini cəlb edib.

Müsahibimiz söhbət zamanı dedi ki, tələbələrin Batabat Astrofizika Rəsədxanasının Batabat stansiyasına ekskursiyaları da ötən tədris ilinin



yaddaqalan tədris proseslərindən biri olub. Ekskursiya iştirakçıları burada yaradılan iş şəraiti ilə tanış olublar. Eyni zamanda bölmənin nəzdində fəaliyyət göstərən Naxçıvan Muxtar Respublikasının canlı təbiət muzeyi – Nəbatat bağında, bölmənin Bioresurslar İnstitutunun nəzdində yaradılan Təbiət muzeyində müxtəlif mövzularda tədbirlər keçirilib. Nəticədə, tələbələr ərazinin zəngin fauna və florası ilə yaxından tanış edilib, onlara zəngin təbii sərvətlərimizin qorunması, ekologiyaya aid botaniki bilik və tövsiyələr verilib.

Akademiyanın Naxçıvan Bölməsi və Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi tərəfindən 2019-cu ildən həyata keçirilən "Sabahın tədqiqatçıları" layihəsi də gələcəyin mütəxəssislərinin yetişdirilməsi baxımından nümunəvi addımdır. Həmsöhbətim bununla bağlı məlumat verərək bildirdi ki, həmin layihə çərçivəsində Naxçıvan şəhərinin ümum-





təhsil məktəblərində təhsil alan və elmə marağı olan 50 şagird bölmə alimləri tərəfindən Azərbaycan dili, tarix, fizika, kimya və biologiya fənləri üzrə fərdi və kollektiv şəkildə tədqiqatlara cəlb edilib. Ötən dövrdə "Ümummilli lider Heydər Əliyev və ana dilinin inkişafı məsələləri", "Naxçıvanın dünya əhəmiyyətli abidələri", "İbtidai sinif dərsliklərində yer alan folklor nümunələrinin şagirdlərin zehni inkişafına təsiri", "Naxçıvan Muxtar Respublikasının dialekt və şivələri", "Naxçıvanın mineral xammalından səmərəli istifadə və onun praktik əhəmiyyəti: qeyri-üzvi birləşmələrin alınması" və digər mövzularda tədqiqat işləri aparılıb. Tədqiqatların nəticəsi olaraq cari ildə müxtəlif layihələrdə uğurlu nəticələr əldə edilib, diplom və medallar qazanılıb. Belə ki, bölmənin Təbii Ehtiyatlar İnstitutunun Hidrogeologiya və mineral sular laboratoriyasının rəhbəri, kimya üzrə fəlsəfə doktoru, dosent Fizzə Məmmədovanın rəhbərliyi ilə Naxçıvan şəhər 11 nömrəli tam orta məktəbin şagirdi Zahidə Allahverdiyeva "Erudit" onlayn olimpiadada 1-ci yerə çıxaraq qızıl medala, "Zamanın biliyi" beynəlxalq kimya müsabiqəsində 1-ci dərəcəli diploma layiq görülüb. Həmçinin Fizzə Məmmədovanın rəhbərliyi ilə Naxçıvan Qızlar Liseyinin IX sinif şagirdi Nuray Məmmədova "Naxçıvan Muxtar Respublikasının bəzi yeraltı sularının minerallığının təyini" layihəsi Moskvada keçirilən VIII Beynəlxalq "Elmə start" elmi-tədqiqat və yaradıcılıq müsabiqəsində 3-cü yerə çıxıb, "Erudit" onlayn kimya olimpiadasında 2-ci yerə layiq görülərək gümüş medal qazanıb. Fizzə Məmmədova isə tələbələrin tədqiqat və yaradıcılıq fəaliyyətinin təşkili və aparılması sahəsində peşə fəaliyyətinin nəticələrini tətbiq etmələrinə kömək etdiyinə görə "Yenilikçi pedaqoji işi" sertifikatı ilə təltif edilib. Həmin institutun Mineral xammalın kimyası və texnologiyası laboratoriyasının müdiri, kimya üzrə fəlsəfə doktoru, dosent Qorxmaz Hüseynovun rəhbərlik etdiyi 15 nömrəli tam orta məktəbin IX sinif şagirdi İnci Nəsirlinin "Biləv alüminium süxurundan alüminiumun mühüm birləşmələrinin alınması" adlı layihəsinin nəticələri Rusiya Federasiyasının Penza şəhərində "Elm və təhsil beynəlxalq elmi əməkdaşlıq mərkəzi"ndə keçirilən "Müasir gənclərin elmi diskussiyası: aktual suallar, nailiyyətlər və yeniliklər" XI Beynəlxalq elmi-praktik konfransında I dərəcəli diplom və sertifikatla təltif olunub. Sözügedən məqalə konfransın materiallarında dərc edilib. Layihə rəhbəri Qorxmaz Hüseynov I dərəcəli diplom və sertifikatla təltif olunub.

Öyrəndik ki, İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Dilçilik şöbəsinin aparıcı elmi işçisi, dosent Zülfiyyə İsmayılın rəhbərliyi ilə Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbin şagirdləri Suay Qasımlı və Suat Qasımlının yerinə yetirdikləri "Sosial məkanda ana dilinin saflığının qorunması: problemlər, perspektivlər" adlı tədqiqat işi isə Rusiya Təbiətşünaslıq Akademiyasının keçirdiyi "Şagird elmi-tədqiqat və yaradıcı işləri üzrə IX Beynəlxalq müsabiqəsi"ndə III dərəcəli diploma layiq görülüb. Layihə rəhbəri isə Rusiya Təbiətşünaslıq Akademiyasının Beynəlxalq Tədqiqatçı, Müəllim və Mütəxəssislər Assosiasiyası tərəfindən pedaqoji sahədə innovativ tədqiqatların aparılmasındakı uğurlu fəaliyyətinə görə "Şəhadətnamə" ilə təltif edilib. Bioresurslar İnstitutunun gənc əməkdaşı, biologiya üzrə fəlsəfə doktoru Əfruz Nəsirovanın rəhbərliyi ilə Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbin X sinif şagirdləri Bəxtiyar İsmayılov və Fatimə İsmayılova "Yabanı tərəvəz bitkiləri ən təmiz ekoloji məhsul" adlı layihə ilə Bakı şəhərində keçirilən "Sabahın alimləri" IX Respublika müsabiqəsində iştirak edib və sertifikata layiq görülüb. Əfruz Nəsirova səmərəli fəaliyyətinə görə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən diplomla təltif olunub.

Muxtar respublikamızda elm, təhsil sahəsində görülən işlər məzmun etibarilə çoxşaxəlidir. Qeyd etdiyimiz kimi, son bir il ərzində həm strateji, həm də taktiki baxımdan müasir keyfiyyət meyarlarına cavab verən xeyli mqarlı işlərin görülməsi, elm, təhsil istiqamətində əsaslı islahatların uğurla davam etdirilməsi bu sahənin ildən-ilə daha da inkişaf edəcəyinin deməyə əsas verir.

*Göründüyü kimi, AMEA Naxçıvan Bölməsi muxtar respublikanın təhsil müəssisələri ilə mövcud olan əlaqələrin davamlı inkişafını diqqətdə saxlayır. Bölmə kollektivinin şagird və tələbələri ilə birgə mühüm əhəmiyyətə malik olan müvafiq layihələr çərçivəsində həyata keçirdiyi tədbirlər hazırda da davam etdirilir. Belə tədbirlərin reallaşması etibarlı gələcəyimizə zəmanət verir. Bu isə belə deməyə əsas verir ki, istedadlı gənc mütəxəssislər yetişdikcə elmimiz, ayrı-ayrı sahələrimiz də davamlı inkişaf yolunda olacaqdır. Bu yola işıqsaçan ziyalılarımıza və onların gələcək davamçılarına uğurlar diləyir, daha böyük nailiyyətlər arzulayırıq.*

**Gülcamal TAHİROVA**

## Həmyerlimiz ABŞ-da nəşr edilən *"Biznes və iqtisadi inkişaf"* jurnalının redaksiya heyətinin üzvü seçilib

*Bu günlərdə iqtisad üzrə fəlsəfə doktoru Sevinc Cabbarova ABŞ-da nəşr edilən "Biznes və iqtisadi inkişaf" jurnalının redaksiya heyətinin üzvü seçilib.*







Qeyd edək ki, bəhs olunan jurnal beynəlxalq, peşəkar və resenziyalı bir mətbuat orqanıdır. 1967-ci ildə qurulan "World Cat" adlı dünyanın ən böyük biblioqrafik məlumat bazasına daxil olan jurnal "Academic Resource İndex", "Eurasian Scientific Journal İndex" və "CrossRef" bazalarında indeksləşir. Jurnal tədqiqat nəticələri, təcrübə və fikir mübadiləsi üçün imkanlar açır, hər hansı bir biznes və iqtisadi sahədə mütəxəssislər arasında davam edən müzakirə üçün platforma təqdim edir. Burada nəşr edilən məqalələr, əsasən, marketinq, menecment, maliyyə, mühasibat, iqtisadiyyat və digər sahələrə yönəldilib. Hazırda jurnalın redaksiya heyətinin ABŞ, Böyük Britaniya, Çin, Rusiya, Almaniya, Cənubi Koreya, Kanada, İspaniya, Portuqaliya, İtaliya, Türkiyə, Polşa, Bolqarıstan, Yunanıstan, Xorvatiya, Avstraliya, Malayziya, Hindistan, Meksika və başqa ölkələrdən üzvü var.

Tədqiqatçı haqqında məlumat jurnalın saytında *(www.jbed.org)* yerləşdirilib, redaksiya heyətinin üzvlüyünə qəbul haqqında sertifikat göndərilib.

Onu da deyək ki, iqtisad üzrə fəlsəfə doktoru Sevinc Cabbarova hazırda AMEA Naxçıvan Bölməsinin doktorantıdır, iqtisad elmləri doktoru alimlik dərəcəsi almaq üçün "Naxçıvan Muxtar Respublikasında emal müəssisələrinin fəaliyyətinin tənzimlənməsi və iqtisadi səmərəliliyinin artırılması istiqamətləri" adlı dissertasiya üzərində işləyir. O həm də 2018-ci ildən bəri Rusiya Federasiyasında nəşr olunan "İqtisadiyyat.Hüquq.Dövlət" adlı beynəlxalq elmi jurnalın redaksiya heyətinin üzvüdür.

**Nuray ƏSGƏROVA**

*"Evimizdən, elimizdən zorla çıxarılandan sonra gəlib Beyləqanda bir çadırda məskunlaşmışdıq. Yoldaşımı və əmim oğlanlarını Qubadlı uğrunda gedən döyüşlərdə itirmişdim. Həmin gecə səhərə kimi yatmadım. Səhərə yaxın gözümə təzəcə yuxu gedirdi ki, bir at  səsi eşitdim. Və tələsik çölə çıxdım. Nə görsəm yaxşıdır? Neçə gündür ki, itkin düşən, yoldaşımın kənddən çıxanda tapa bilmədiyim ən yaxın dostu – boz atımız bizim yaşadığımız həyətə gəlib. İnana bilmirdim ki, neçə kilometr yolu gəzib bizi tapıb. Çox sevinmişdim onu görəndə. Bir neçə gün qaldığımız yerin həyətində dayanıb durdu, heç nə yemədi, gəldiyimiz torpaqlara doğru baxır, sanki bizə "yurdumuza – sahibimin məzarı olan torpağa geri  qayıdaq", – deyirdi baxışları ilə. Bir gün tezdən qalxıb ona baxmağa getdim, amma yox idi. Harasa getmişdi. Beləcə, aylar keçdi, amma o vəfalı atdan xəbər çıxmadı. Bir müddət sonra həmin illərdə  o səngərlərdə döyüşən qonşumu gördüm. Soraqladım ki, ay bala, bizim həyətdəki o boz at gəlib bizi tapmışdı, amma bir neçə gün qalıb yenə harasa getdi. Bəlkə, onu görmüş olasan? Bir anlıq gözləri doldu: – Bəlkə də, torpağının və sahibinin həsrətinə dözə bilməyib, neytral zonadan keçib, kəndimizə qayıtmaq istəyəndə murdarların basdırdığı minaya düşdü? Torpaq həsrəti təkcə insanları yox, dilsiz-ağızsız heyvanları belə ölümə aparırmış", – dedi...*

# Qubadlı həsrətinin bitəcəyi gün uzaqda deyil



Bu hadisəni illər öncə Qubadlıdan olan Sona xalanın dilindən eşitmişdim. O deyirdi ki, doğma el-obanın intizarı təkcə insanları göynətmir, yurduna həsrət qalmış digər canlılara da təsir edir. Sona xala Qubadlının işğalı günü yurdundan bir ovuc torpaq götürüb, kəlağayısının bir küncünə qoyub, düyünləyib özü ilə götürmüşdü. Nəvələri deyirdi ki, hər gün dəfələrlə o torpağı iyləyib ətrini duymasa, yaşaya bilməz.

Zəngəzur mahalının qədim yaşayış məskəni, uca dağları, şiş qayaları, sərin bulaqları, gözəl meşələri, gur çayları, münbit torpağı olan Qubadlı 1993-cü il avqustun 31-də işğal olundu. 1988-ci ildən başlayan qeyri-bərabər döyüşdə bu torpaq uğrunda yüzlərlə şəhid verən Qubadlının 30 mindən çox əhalisi məcburi köçkün həyatı yaşamağa məhkum edildi. Əhalisinin uzun illər alın təri və zəhmətlə topladığı var-dövlət, tikdiyi evlər, saldığı yollar, körpülər, bir sözlə, hər şey ermənilər tərəfindən dağıdıldı, talan olundu. İşğalçılar o torpaqda daşı-daş üstdə qoymadılar. Evləri söküb, son daşına qədər apardılar. Qubadlını viran etdilər.

Bir şəhər, 93 kənd, 31 inzibati ərazi dairəsindən ibarət aid olan rayon 14 mart 1933-cü ildə yaradılıb. İnzibati mərkəzi Qubadlı şəhəridir. "Qubadlı" toponimi "qubadlı" tirəsinin adı ilə bağlıdır. 1823-cü ilə aid mənbəyə görə, Qarabağ xanı İbrahimxəlil xan kəndə məxsus torpaq sahəsini pulla satın almış və qardaşı Mehdiqulu xana bağışlamışdı. Başqa bir fikir isə belədir: "Qubadlı" toponimi V-VI əsrlərdə yaşamış Sasani hökmdarı I Qubadın adı ilə bağlıdır. Qubadlı rayonu tarixdə "Bərgüşad" mahalı kimi də tanınıb. XIX əsrin 50-ci illərinə aid ədəbiyyatda Naxçıvanda "Bərgüşad" adlı türkdilli tayfanın adı çəkilir. İşğaldan öncəki dövrdə Bazarçay (Bərgüşad), Həkəri, Kiçik Həkəri, Meydan dərəsi çayları və çoxlu bulaqlar rayonun əsas su mənbəyi idi. Rayonda, əsasən, qəhvəyi dağ-meşə torpaqları yayılmışdı. Əsas bitki örtüyü kollu və seyrək meşəli çəmənlər idi. Dağ meşələri (fıstıq, palıd, vələs və sair) vardı. Meşələrin sahəsi 13,2 min hektar idi. Qubadlının iqtisadiyyatının əsasını taxılçılıq, heyvandarlıq, tütünçülük, baramaçılıq və üzümçülük təşkil edirdi. Rayonun işğalı zamanı ermənilər 5 mindən çox nadir eksponat saxlanılan Qubadlı Tarix-Diyarşünaslıq Muzeyini də talan etdilər. IV əsrə aid "Gavur dərəsi"ndəki ibadətgah, V əsrə aid Qalalı və Göyqala abidələri, XIV əsrdə tikilmiş Dəmirçilər türbəsi, Hacı Bədəl körpüsü, Laləzar körpüsü, eləcə də Əyin, Yusifbəyli, Seytas, Qaraağaclı, Xocamsaxlı kəndlərindəki digər tarixi abidələr hazırda işğal altındadır. Muradxanlı kəndindəki V əsrə aid Qalalı, Əliquluuşağı kəndindəki Göyqala abidələri, XIV əsrə aid Yazı Düzündəki Cavanşir, Dəmirçilər kəndində olan 2, XVII əsrə aid Gürcülü kəndində, XVIII əsrə aid Xocamsaxlı kəndində olan türbələr ondan xəbər verir ki, Qubadlıda qədim dövrlərdən elm, mədəniyyət mərkəzləri olub.

1993-cü ilin əvvəllərində hakimiyyət ölkəni idarə etmək əvəzinə kürsünü boş qoyub qaçdı. Respublika iqtisadi, hərbi, siyasi böhran içindəydi. Cinayətkarlıq baş alıb gedirdi. Bunlar azmış kimi yerli xəyanətkar qüvvələr xalqı vətəndaş müharibəsi vəziyyətinə gətirmişdi. Müdrik, qətiyyətli və uzaqgörən siyasətçi, ümummilli liderimiz Heydər Əliyev xalqın tələbi ilə o məqamda hakimiyyətə gəldi ki, artıq vətəndaş müharibəsi başlanmışdı. Məhz Onun hakimiyyətə yenidən qayıdışı xalqımızı bu çətin vəziyyətdən qurtardı.

Həmin vaxtlar Azərbaycanın müstəqilliyini istəməyən düşmən qüvvələr həm xaricdən, həm də daxildən dövlət çevrilişinə cəhd göstərdilər. 1993-cü ilin iyul-avqust aylarında bütün cəbhəboyu erməni hücumlarının miqyası genişləndirildi. Eyni mərkəzdən idarə olunan yerli xəyanətkar qüvvələr özlərinə tabe olan hərbi birləşmələri döyüş mövqelərindən çıxardılar. Cəbrayılın düşmənin nəzarətinə keçməsi ilə rayonun şərq tərəfdən geniş bir ərazisi müdafiəsiz qalmışdı. Həkəri çayı boyunca Zilanlı, Mahruzlu, Xanlıq kəndlərindən tutmuş Başarat zonasınadək yerli əhali silaha sarılsa da, qüvvələr qeyri-bərabər, zirehli texnikanın qarşısını 4-5 adama düşən bir avtomatla qorumaq mümkünsüz idi. Avqust ayının 30-da erməni hərbi birləşmələri yalnız yerli mülki əhalinin qoruduğu Gəyən zonası istiqamətindən güclü hərbi texnikanın müşayiəti ilə hücuma keçdi.

Əsas zərbə Xanlıq istiqamətinə yönəldilmişdi. Qeyri-bərabər döyüşdə xanlıqlılar nə qədər fədakarlıqla döyüşsələr də, erməni tankları kəndə soxula bildi. Həkəri çayı boyunca Muradxanlı, Balasoltanlı, Xoçik istiqamətlərində rayona basqın edən erməni hərbi birləşmələri kəndləri yandırdı, dinc əhaliyə divan tutdu.

Qeyri-bərabər döyüşlərdə torpaqlarımızın bir hissəsini və Vətən oğullarını itirsək də, ulu öndərimizin hakimiyyətə gəlməsi və mövqeyini möhkəmləndirməsi ilə düşmənin hücumunun qarşısı alındı. 1994-cü ildə əks-hücumla bir neçə yüksəklik geri alınsa da, həlo nizamlı ordu olmadığı üçün daha genişmiqyaslı döyüş aparıla bilmədi.

Tarixdə elə şəxsiyyətlər olur ki, onların həyat və fəaliyyəti bütöv bir xalqın, dövlətin inkişaf yolunu müəyyənləşdirir. Ulu öndərimiz də həmin dahi insanlardan idi. Dövlətimizin başının üstünü alan qara buludlar da Onun gəlişi ilə dağıldı. Öz mənafeyini dövlətin və xalqın mənafeyindən üstün tutan bəzi siyasətbazların da arzusu gözündə qaldı. Dərin zəkası, uzaqgörənliyi, tükənməz enerjisi və təhlil bacarığı görkəmli dövlət xadiminə imkan verirdi ki, ən çətin və çıxılmaz vəziyyətlərdə öz xalqı və Vətəni üçün ən düzgün və qətiyyətli yol seçsin. Dahi rəhbərin qayıdışının yaratdığı ruh yüksəkliyi ilə düşmənin qarşısında məğrur dayanan, igidcəsinə döyüşən, canını Vətən yolunda qurban verən oğullarımızın sayəsində torpaqlarımıza uzanan əllər kəsildi. Dahi rəhbərin gərgin əməyi nəticəsində atəşkəsə nail olundu.

Artıq 30 ilə yaxın bir zamandır ki, hər bir azərbaycanlı "Qarabağ" adlı qisas daşıyır ürəyində. İllər keçdikcə bu hiss, ordumuzun gücü, dövlətimizin iqtisadi qüdrəti artdıqca həsrətimizin bitəcəyi gün də yaxınlaşır. Ürəyi Vətən eşqi ilə döyünən oğullar hər an irəli atılmağa, cənnətməkanlarımızdan biri olan Qubadlını geri almağa hazır olduqlarını bütün dünyaya nümayiş etdirirlər. Aprel döyüşləri və Günnüt zəfərində ordumuz hər an torpaqlarımızı öz sahibinə qaytara biləcək gücdə olduğunu göstərdi. Azərbaycan xalqına Qaçaq Nəbi kimi qəhrəman, Həcər kimi igid qadın, Valeh Bərşadlı kimi general və bir çox görkəmli ziyalılar bəxş edən Qubadlının əsl sahibinə qaytarılacağı gün yaxındadır. Ulu öndərimizin layiqli davamçısı Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyətli addımları xalqımızda bu inamı daha da yüksəldir və biz əminik ki, "Böyük qayıdış"ın baş verəcəyi gün torpaqlarımız uğrunda canından keçən övladlarımızın qisası alınacaq, onların ruhu şad olacaq.

✍ **Ramiyyə ƏKBƏROVA**

## Tüstü bacalarının təmizlənməsi dəm qazı ilə zəhərlənmə təhlükəsini azaldır

*Yaşayış binalarında tüstü bacalarının vaxtında təmizlənməsi payız-qış mövsümünə hazırlığın vacib şərtlərindən biri hesab olunur. İstifadəyə yararsız tüstü bacaları bir çox hallarda insan sağlamlığı üçün təhlükə yaradır. Xüsusilə qeyd edək ki, mənzillərdə quraşdırılmış qazla işləyən sobaların və suqızdırıcıların istifadəsi zamanı təhlükəsizlik qaydalarına əməl edilməməsi, tüstü bacalarının və havaçəkmə kanallarının işlək vəziyyətdə olmaması səbəbindən bir çox hallarda dəm qazından zəhərlənmə kimi xoşagəlməz hallar baş verir.*

Belə halların qarşısının alınması məqsədilə Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsi və yanğın təhlükəsizliyi orqanlarının əməkdaşları tərəfindən əhali arasında maarifləndirmə işi davam etdirilir. Görülən tədbirlərin nəticəsidir ki, 2020-ci ilin birinci yarısında dəm qazı ilə zəhərlənmə halları azalıb, ölümlə nəticələnən hadisələr qeydə alınmayıb.



Qazdan təhlükəsiz istifadə qaydalarına görə suqızdırıcıların tüstü bacaları ildə bir dəfə, digər qızdırıcı cihazların tüstü bacaları isə istilik mövsümündən əvvəl mütləq təmizlənməlidir. Qeyd edək ki, 2019-2020-ci illərin payız-qış mövsümü dövründə Fövqəladə Hallar Nazirliyi yerli icra hakimiyyəti orqanları ilə birbər tüstü bacalarının və havaçəkmə kanallarının təmizlənməsi, vətəndaşlar tərəfindən bağlanılmış və ya sökülərək istifadəyə yararsız vəziyyətə salınmış tüstü bacalarının açılması məqsədilə 11 ictimai yaşayış binasının 450 mənzilinin tüstü bacalarına və havaçəkən kanallarına baxış keçirmiş, onların 343 ədədinin təmizlənməsinə nail olunmuş, 73 ictimai yaşayış binasında 643 ümumi tüstü bacasının ətrafı metal torla bağlanmışdır.

2020-2021-ci illərin payız-qış mövsümünə hazırlıqla bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilmiş müşavirədə verilmiş tapşırıqların icrası ilə əlaqədar Naxçıvan şəhərində və rayon mərkəzlərində ictimai yaşayış binalarının mənzillərində bu istiqamətdə işlər davam etdirilir. Bununla yanaşı, mənzillərdə dəm qazından zəhərlənmələrin qarşısını almaq məqsədilə əhalinin maarifləndirilməsinə ehtiyac duyulur. Bunları nəzərə alaraq Fövqəladə Hallar Nazirliyinin mütəxəssisləri vətəndaşlara aşağıda qeyd olunan təhlükəsizlik qaydalarına əməl etmələrini tövsiyə edir:

- istifadəyə yararsız tüstü bacaları aidiyyəti orqanlar və mənzil sahibləri tərəfindən qış mövsümü başlananadək işlək vəziyyətə gətirilməlidir;
- nasaz tüstü bacalarına qazla işləyən sobaların və suqızdırıcıların çıxış borularının qoşulması qadağandır;
- qazla işləyən bir neçə soba və suqızdırıcının tüstü borusunu eyni vaxtda bir tüstü borusuna qoşmaq olmaz. Çünki belə hallar dəm qazının birbaşa mənzilə dolmasına və zəhərlənməyə səbəb olur;
- mənzillərdə təmir işləri aparılarkən tüstü bacalarını və havaçəkmə kanallarını sökmək, zədələmək və ya onların qarşısını tutmaq olmaz;
- tüstü bacasının içərisindən su və qaz xətlərinin çəkilməsinə yol verilməməlidir. Çünki tüstü bacasının divarının zədələnməsi və ya uçması nəticəsində onların tutulması və yararsız vəziyyətə düşməsi baş verir;
- yadda saxlamaq lazımdır ki, tüstü bacalarının təmizlənməməsi həyatınız üçün ciddi təhlükədir.

***Naxçıvan Muxtar Respublikası  Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

## Səyyar xidmətlər göstərilir

Naxçıvan Protez-Ortopedik Bərpa Mərkəzinə müraciət edən vətəndaşlara, o cümlədən müvafiq kateqoriyadan olan uşaqlara protez xidmətləri göstərilir, onlar ortopedik məmulatlarla təmin olunurlar. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə Şərur və Sədərək rayonlarında keçirilən səyyar xidmətlər zamanı əlilliyi olan şəxslərdən protez və ortez sifarişləri qəbul edilib, zəruri hallarda protezlər təmir edilib. Eyni zamanda müvafiq kateqoriyadan olan şəxslərə protez ayaqqabı, eşitmə aparatı və digər texniki və köməkçi reabilitasiya vasitələri verilib.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Finalda mübarizə aparacaq komandaların adları məlum olub



Azərbaycan Futbol Federasiyaları Assosiasiyası, Azərbaycan Çimərlik Futbolu Federasiyası, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Naxçıvan Futbol Federasiyasının birgə təşkilatçılığı, "Arazbet"in baş sponsorluğu ilə keçirilən çimərlik futbolu üzrə muxtar respublika çempionatında yarımfinal görüşləri olub.

İlk olaraq meydana "Şahinlər" və "Badamlı" komandaları çıxıb. Məğlubiyyətsiz olaraq bu mərhələyə kimi yüksələn hər iki komandanın görüşü gözləniləndən də gərgin keçib. Oyunun gedişatında üstünlüyü ələ alan "Badamlı" komandası 2:1 hesablı qələbə qazanaraq finala yüksəlib.

Günün digər görüşündə "Naxçıvan Dövlət Universiteti" komandası "Panter"lə üz-üzə gəlib. Hər iki tərəfin oyun boyu hücumları nəticəsində azarkeşlər gərgin və maraqlı oyuna şahidlik ediblər. Nəticədə, 3:2 hesabı ilə qalib gələn "NDU" komandası həlledici qarşılaşmada oynamaq hüququ qazanıb.

## Yoldaşlıq görüşündə "Ordubad" komandası qalib gəlib

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Voleybol Federasiyasının təşkilatçılığı ilə voleybol üzrə yoldaşlıq görüşü keçirilib.*



Uzunoba çimərliyindəki voleybol meydançasında keçirilən görüşdə "Ordubad" və "Şahbuz" komandaları üz-üzə gəliblər. Gərgin keçən görüşün ilk setində qələbə qazanan Ordubad voleybolçuları bu üstünlüyü sonadək qoruyub və nəticədə, meydanı 3:1 hesablı qələbə ilə  tərk ediblər.

Sonda hər iki komanda təşkilatçılar tərəfindən mükafatlandırılıb.

✍ **Ceyhun MƏMMƏDOV**

**İtmişdir**

Vəlizadə Rüstəm Əbülfəz oğlunun adına olan 0600526202 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 639